# Disleksiyanın formalarının müqayisəli təhlili

**Əminə Rasim qızı Abbasova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** emineabbasova@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. N.T. Hüseynova,
p.ü.f.d., dos. S.R. Aslanova

**Açar sözlər:** disleksiya, oxu, forma, öyrənmə çətinliyi, heca, hərf
**Ключевые слова:** дислексия, чтение, форма, трудности в обучении, слог, буква
**Key words:** dyslexia, reading, form, learning difficulties, syllable, letter

"Disleksiya" anlayışı fərqli müəlliflər tərəfindən fərqli yanaşmalar şəkildə irəli sürülmüşdür. M.E.Xvatsevin qeyd etdiyi kimi disleksiya oxu prosesinin pozulmasıdır, bu öyrənmə prosesini çətinləşdirir və bu zaman öyrənmə çətinliyi olan şəxs oxu zamanı bir sıra problemlərlə qarşılaşır (1).

Disleksiya iki formada təzahür edir: literal və verbal. Hərflərin qavranılması zamanı çətinliklərin baş verməsi literal disleksiya, oxu prosesində çətinliklərin olması isə verbal disleksiya zamanı müşahidə edilir. Ancaq bu yanaşma şərti hesab olunur çünki disleksiyadan əziyyət çəkən uşaqlarda hər iki forma özünü göstərir.

Disleksiyanın müxtəlif müəlliflər tərəfindən bir sıra təsnifatları irəli sürülmüşdür (A.N. Kornev, V.K. Orfinskaya, S.Borel – Mezonni, M.Y.Xvatsev, R.Bekker, O.A.Tokareva və başqaları).

Aşağıda R.İ.Lalaevanın təsnifatı təqdim olunmuşdur. R.İ.Lalaeva disleksiyanın formalarını oxu prosesinin pozulma dərəcələrinə görə ayırır: fonematik, semantik, aqramatik, mnestik, optik, taktil disleksiya (6).

Fonematik disleksiya uşaqlarda fonematik sistem funksiyalarının, fonematik analizin, ünsiyyətin inkişafsızlığı prosesinin formalaşmaması nəticəsində yaranır. Bu pozulma sözlərdə səs və heca strukturunun təhrif olunması (buraxmalar, əvəzolunmalar, yerdəyişmələr, əlavələr) ilə əks olunur. Fonematik disleksiya zamanı hərfləri ayrı şəkildə oxunması, sözlərin səs tələffüz strukturunun təhrif olunması və s kimi proseslər baş verir. Uşaqlarda bəzi hallarda fonemik qavrayış, analiz və sintez funksiyaları az inkişaf etmiş ola bilər. R.İ.Lalayeva fonematik sistemin əsas funksiyalarının formalaşmamasını nəzərə alaraq fonematik disleksiyanın iki formasını ayırd edir (6):

Birinci forma, fonematik qavrayışın zəif inkişafı ilə əlaqəli bir oxu pozulmasıdır (fonemlərin fərqləndirilməsi), hərflərin mənimsənilməsində çətinliklərdə, eyni zamanda akustik və artikulyar oxşar səslərin dəyişdirilməsində özünü göstərir. İkinci forma isə fonematik analiz və sintezin inkişaf etməməsi ilə əlaqədar hesab edilir.

Orfinskaya isə analiz növlərini belə müəyyənləşdirmişdi:
— səsin mövcudluğunun müəyyənləşdirilməsi;
— bir sözdə səsin yerinin təyin edilməsi (başlanğıc, ortada, sonda);
— səslərin sayının təyin edilməsi;
— səslərin ardıcıllığının təyin edilməsi və s. (3)

Semantik disleksiya isə oxu prosesi zamanı oxunan sözün, cümlənin, mətnin qavranılmasında pozulmaların olması ilə özünü göstərir. Qeyd etmək lazımdır ki, disleksiyanın bu növündə texniki olaraq düzgün şəkildə oxunan zaman söz, cümlə, mətnin təhrif olunmamasına

baxmayaraq, anlama pozulması prosesi baş verir. Oxunan sözün “anlama” pozulmasının olması əsasən sözü hecalayaraq oxuyan zaman daha çox müşahidə olunur. Uşaqlar onlara deyilən sözlərə uyğun şəkilləri göstərə bilmir, yaxşı bildikləri bir sözün mənası ilə əlaqəli bir suala cavab verə bilmirlər. Semantik disleksiya zamanı təkcə oxunanın dərk olunması prosesi deyil, həm də mətnin məzmununun qavranılmasında da bir sıra çətinliklər müşahidə olunur. Uşaqlar oxuduqlarını tam şəkildə deyə bilmir, verilən suallara cavab verməkdə çətinlik çəkirlər. Oxu prosesində bir sözün hecalara bölünməsi oxunanları başa düşməməyin səbəblərindən biridir. Oxu prosesi zamanı sözlərin hecalara ayırıb oxunması, oxunan mətnin başa düşülməməsinə səbəb olur. Nəticə etibarilə, fonematik və heca sintezinin pozulması zamanı uşaqlar əgər sözlər bir neçə hissəyə bölünübsə, onlar bu sözləri tanımır və anlamırlar. Təsəvvürlərində hecalara ayırdıqları sözləri sintez və onları bərpa etmək qabiliyyətinə malik deyillər. Buna görə də semantik disleksiyadan əziyyət çəkən hər bir uşaq hecalara ayrılmış sözlərin, cümlələrin birləşdirilməsi tapşırığının yerinə yetirməkdə çətinlik çəkirlər. Oxuma prosesində pozulması olmayan uşaqlar normal olaraq bu tapşırıqları asanlıqla yerinə yetirirlər. Ayrı-ayrı hecalara bölünmüş sözlər, təhrif olunmuş səslər, hecaların sintezi və s. proseslər semantik disleksiyalı uşaqlar üçün bir qədər mürəkkəb gələ bilər. Buna görə də semantik disleksiyadan əziyyət çəkən uşaqlarda sözlərin bütöv şəkildə tələffüzü zamanı bir sıra çətinliklər müşahidə olunur (5).

Nitqin qrammatik quruluşunun, morfoloji və sintaksis ümumiləşdirmələrinin pozulması kimi proseslər isə aqramatik disleksiyada müşahidə olunur. Disleksiyanın bu növündə ismin hallarında sonluqlarının dəyişikliyi, ismin və sifətin hallarında, növlərində səhvlərin olması, əvəzliklərin sayının və yerinin düzgün olmaması şəkilçilərin düzgün seçilməməsi, qarışdırılması və s. hallar baş verir. Oxu prosesində adətən, ön və son şəkilçilərin dəyişdirilməsi, əvəz olunması qeyd olunur. Aqrammatik disleksiya daha çox oxu prosesini formalaşmasının sintetik mərhələsində nitqin inkişafsızlığı olan uşaqlarda müşahidə olunur (4).

Mnestik disleksiya nitq yaddaşının və vizual olaraq səslə hərflərin arasında əlaqənin olmaması kimi prosesləri özündə birləşdirir. Uşaq hərfləri yadında saxlıya bilmir, oxu zamanı onları başqa hərflərlə əvəz edir və ya onları qarışdırır. Araşdırmalar zamanı təsdiq olunmuşdur ki, mnestik dislekisya zamanı uşaqlarda eşitmə - nitq yaddaşında bir sıra pozulmalar da olur.

Optik disleksiya hərflərin çətinliklə qavranılması və görmə qavramasında bir sıra pozulmaların olması ilə özünü göstərir. Adətən uşaqlar oxu prosesi zamanı qrafik cəhətdən bir-birinə oxşar olan hərfləri qarışdırırlar. Optik disleksiya zamanı görmə analizinin pozulması və oxu zamanı hərf və sözlərin yerlərinin dəyişməsi prosesi baş verir. Bir-birinin üstündə yazılmış hərfləri tanımaqda çətinliklər ortaya çıxır, uşaqlar düzgün hərfi səhvdən ayırd edə bilmirlər (2).

Optik disleksiyada olduğu kimi taktil disleksiyada görmə ilə əlaqədardır. Lakin taktil disleksiya tamamilə görməsini itirən kor uşaqlarda özünü göstərmiş olur. Bunun əsasında Brayl əlifbasının toxunma yolu ilə diferensial qavranılmasında çətinliklərin olması müşahidə olunur. Oxuma prosesində eyni sayda nöqtələri olan hərflərin, oxşar hərflərin qarışdırılması və s. kimi proseslər baş verir. Taktil disleksiyası olan kor uşaqlarda bədənin sxemi, zaman və ətraf-mühit anlayışında pozulmaların olması, nitqin inkişaf ləngiməsi kimi hallar müşahidə olunur. Həmçinin aqrammatik disleksiyanın sintetik mərhələsində də nitqin inkişafsızlığı müşahidə olunur. Sözü oxuyarkən disleksiyalı kor olan uşaqlar hərfləri bir-birindən ayrı şəkildə qavrayır. Bu uşaqlar oxuma prosesi zamanı daha çox itirilmiş söz və ya cümləni axtararaq bu prosesi ləngidirlər. Spazmatik hərəkətlər, hərfin daha dəqiq qavranılması üçün təkrar şəkildə o hərfə qayıtmaq və s. bütün bu proseslər oxuma çətinliyinin nəticəsi kimi qeyd olunur. Beləliklə, disleksiyanın formaları öz mexanizm, simptomlarına görə bir-birindən fərqlənir.

**Məqalənin aktuallığı.** Oxu prosesinin pozulmasına təsir göstərən ən mühüm amillərdən biri də disleksiyadır ki, bu hal öyrənmə prosesini çətinləşdirir və bu zaman həmin şəxs oxu zamanı bir sıra problemlərlə üzləşir. Buna müasir dövrdə uşaqlar arasında daha çox rast gəlindiyindən və məqalədə də məhz belə bir vacib problemdən söhbət açıldığından onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə disleksiyanın formalarının təsnifatı verilməklə dünyanın məşhur alimlərinin bu anlayışa elmi yanaşmaları da göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və xüsusi təhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Ляудис В.Я., Негуре И.П. Психологические основы формирования письменной речи у младших школьников. М., 1994.

2. Лалаева Р.И. Нарушение процесса овладения чтением у школьников: Уч. пособие для студентов. М.: Просвещение, 1998.

3. Парамонова Л.Г. Логопедия для всех. М., 2002.

4. Лалаева Р.И Логопедическая работа в коррекционных классах: Кн. для логопеда. М.: Гуманит. Изд. Центр ВЛАДОС, 1999.

5. Садовникова И.Н. Нарушения письменной речи и их преодоление у младших школьников. М., 1995.

6. Лалаева Р.И. Нарушения чтения и пути их коррекции у младших школьников. М.: Союз, 2004.

**Э.Р. Аббасова**

## Сравнительный анализ форм дислексии

## Резюме

Нарушение процесса чтения называется термином - дислексия. Для устранения дислексии прежде всего надо определить её формы. Дислексия имеет разные формы. И эти формы по своей симптоматике и механизмами резко отличаются друг от друга.

**E.R. Abbasova**

## Comparative analysis of forms of dyslexia

## Summary

Partial violation of the reading process is denoted by the term dyslexia. In the first place to eliminate this violation, it is necessary to confuse the forms of dyslexia. There are different forms of dyslexia, and these forms differ fundamentally in their symptoms and mechanisms.

**Redaksiyaya daxil olub:** 23.01.2021.